**KAMRAN İMANOV**

# ƏQLİ MÜLKİYYƏT VƏ İDMAN

**Bakı – 2019**

**Kamran İmanov,**

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri.

**Əqli mülkiyyət və idman. Bakı, 2019**

Bu kitabça Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanovun Əqli Mülkiyyət Agentliyinin 26 aprel – Beynəlxalq Əqli Mülkiyyət Günü münasibətilə 26 aprel 2019-cu il tarixində keçirilən "Əqli mülkiyyət və idman" mövzusunda seminarda etdiyi çıxış sözü əsasında hazırlanmışdır.

**© Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi, 2019**

# Əqli mülkiyyət və idman

Hörmətli dostlar, xanımlar və cənablar!

Aprelin sonu ənənəvi olaraq, Kitab, müəlliflik hüququ və əqli mülkiyyətə aid əlamətdar günlərdir: 23 aprel UNESCO-nun «Ümumdünya kitab və müəlliflik hüququ günüdür» (Azərbaycanda bu tarix 1997-ci ildən başlayaraq, 23-cü ildir ki, qeyd olunur) və 26 aprel ÜƏMT-nın «Beynəlxalq əqli mülkiyyət günüdür» (Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi 2001-ci ildən başlayaraq, 19 ildir ki, qeyd edir). Həmin günlərdə keçirilən müxtəlif növ tədbirlər, görüşlər, masalar, konfrans və simpoziumların əsas məqsədi əqli mülkiyyət, müəllif-hüquq mədəniyyətinin dərinləşdirilməsinə dəstək verməkdən, biliklər cəmiyyətində əqli mülkiyyətin kreativlik və yenilikçilik amillərinin stimullaşdırılmasında əvəzedilməz əhəmiyyətini qabarıq göstərməkdən ibarətdir.

Hər il aprelin 26-da Beynəlxalq Əqli Mülkiyyət Günü münasibəti ilə keçirilən tədbirlər fərqli mövzulara həsr olunur və bugünkü seminarımızın mövzusu: “Əqli mülkiyyət və idman”dır və onun xüsusi mənası vardır. Belə ki, ÜƏMT-nın “Beynəlxalq Əqli Mülkiyyət Günü” münasibəti ilə builki açıqlamasından görünür ki, bu il

keçirilən tədbirlərin əsas məqsədi əqli mülkiyyətin idmanın inkişafına təsirinin göstərilməsidir. Bu, eyni zamanda bizə əqli mülkiyyət hüquqlarının innovasiya və yaradıcılığın inkişafında oynadığı rol barədə danışmaq imkanı yaradır.

Tədbirin builki devizi "Qızıl uğrunda" səslənir və ÜƏMT-nın müraciətində qeyd olunduğu kimi, "Minilliklər boyu idman insanlarda doğurduğu heyranlıqla yanaşı, öz qüvvəsini sınamaq səylərinə, yarışların cəlbediciliyinin artmasına və insanları daha yüksək nəticələr əldə etməyə ruhlandırmağa xidmət edir".

Bu sözlərin Azərbaycan üçün xüsusi əhəmiyyəti var, çünki Azərbaycan idman ölkəsidir. Çünki bizim idmançılarımız yüksək səviyyəli yarışlarda qalib çıxaraq, bizi ruhlandırırlar. Cənab Prezident İlham Əliyevin 2018-ci ilin idman yekunlarına həsr olunan mərasimdə etdiyi çıxışındakı sözlərlə desək: "İdmançılarımız bizi hər il sevindirir. Bizim cəmiyyətimiz buna artıq öyrəşib. Bu il idmançılarımız tərəfindən dünya, Avropa çempionatlarında və digər beynəlxalq yarışlarda 800-ə yaxın medal, o cümlədən 263 qızıl medal əldə edilmişdir. Bu, böyük nəticədir, böyük qələbədir. Bu qələbə münasibətilə idmançılarımızı təbrik edirəm.

Bu qələbələr, sadəcə olaraq, idman qələbələri deyil. Çünki hər bir belə möhtəşəm qələbə cəmiyyətimi-

zin vətənpərvərlik ruhunu artırır, Azərbaycanı dünyada güclü idman ölkəsi kimi tanıtdırır, Azərbaycanı təbliğ edir. Bu qələbələr gəncləri idman bölmələrinə aparır, idmanın kütləviliyini təmin edir. Yəni, idman qələbələri, idmançılarımızın uğurları çox böyük məna daşıyır. Buna görə biz idmançılarımıza minnətdarıq".

Hörmətli konfrans iştirakçıları!

Azərbaycan yeniləşir, qüdrətlənir, ölkəmizin nüfuzu beynəlxalq miqyasda artır. Cənab Prezident İlham Əliyevin iqtisadi islahatlar konsepsiyası yeni uğurlu nəticələr verir, Azərbaycan iqtisadiyyatında artım nümayiş olunur, 2019-cu ilin iki ayının nəticələri, həmin ilin yanvar-fevral aylarındakı ÜDM-in nəticələrinin 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 3% çoxdur, sənayenin qeyri-neft sektorundakı artımı isə 15,6%-dir və dünya rekordu səviyyəsindədir. Bütün bunlar əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması istiqamətində inqilabi addımlarla müşahidə olunur. Minimum əmək haqqının, əmək pensiyalarının, bütün növ sosial müavinətlərin, təqaüdlərin əhəmiyyətli dərəcədə artırılması və dövlət başçısı tərəfindən atılan digər addımlar böyük rəğbətlə qarşılanır. Cənab Prezident İlham Əliyevin Novruz bayramı münasibətilə xalqa təbrikindəki sözlərlə desək, "bizim iqtisadi gücü-

müz artdıqca sosial məsələlər daha geniş miqyasda öz həllini tapacaqdır…”.

Xalqımız dövlət başçısının yürütdüyü siyasətə böyük dəstək verir. Fransanın «Opinion Way» şirkətinin sorğusunun nəticələri göstərir ki, vətəndaşların 80,1%-i ölkədəki mövcud ictimai-siyasi və sosial-iqtisadi sabitliyin qorunub saxlanmasını cənab Prezident İlham Əliyevin ən uğurlu nəticəsi kimi dəyərləndirir, 85,1%-i isə son bir ildə görülən işlərə müsbət qiymət verir.

Heç də təsadüfi deyil ki, Dünya Bankının «Doing Business - 2019» hesabatında Azərbaycan 190 ölkə arasında 25-ci yerə yüksəlib, 10 ən islahatçı dövlətlər sırasındadır. Bir sözlə, dövlət başçısının verdiyi mühüm qərarlar Azərbaycanın inkişafında yeni bir mərhələnin başlanğıcıdır.

Hörmətli konfrans iştirakçıları!

Dövlət başçımızın yürütdüyü uğurlu siyasət hər bir sahədə öz bəhrələrini verir. Davos İqtisadi Forumunun rəqabətqabiliyyətlilik ilə bağlı son Hesabatında Azərbaycan əqli mülkiyyətin qorunmasında 36-cı yerdə qərarlaşaraq, MDB məkanında liderdir. Lakin irəliyə baxaraq, qarşımızda duran vəzifələri daha yüksək səviyyədə yerinə yetirməliyik. Çünki Azərbaycanın bugünkü reallıqları ondan ibarətdir ki, ölkəmiz dünya öl-

kələri tərəfindən tanınan islahatçı-dövlətdir və bu islahatlar hər bir sahədə, o cümlədən əqli mülkiyyət (ƏM) sahəsində geniş miqyasda həyata keçirilir. 2018-ci ildə həyata keçirilən struktur, institusional və iqtisadi islahatlar nəticəsində ƏM sistemində əhəmiyyətli təşkilati və funksional dəyişikliklər baş vermişdir.

Dövlət başçısının Sərəncamı ilə Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi və ləğv edilmiş Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin Patent və Əmtəə Nişanları Mərkəzinin birləşməsi nəticəsində Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi yaradılmışdır.

Sənaye mülkiyyəti sahəsində ləğv edilmiş Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin səlahiyyətləri, tabeliyində olan Respublika Elmi-Texniki Kitabxana Əqli Mülkiyyət Agentliyinə verilmiş və onun tabeliyində Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzi və Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzi yaradılmış, yeni Nizamnamələri təsdiq edilmişdir. Nəticədə ƏM sahəsinin bütövlükdə inkişafını təmin edən, bu sahədə vahid tənzimləməni və nəzarəti həyata keçirən və fəaliyyəti əlaqələndirən, işçiləri dövlət qulluqçularına və əməyin ödənilməsində mərkəzi icra hakimiyyəti orqanlarına bərabər tutu-

lan ixtisaslaşmış, yığcam dövlət qurumu fəaliyyətinə başlamışdır.

Yeni qurum qarşısında duran vəzifələr dövlət başçısının göstərişlərinə əsasən, daha çevik, daha yığcam və daha məqsədyönlü struktur vasitəsilə sahənin idarə edilməsidir, müəllif-hüquq sahəsi ilə yanaşı, sənaye mülkiyyəti obyektlərinin idarə edilməsi və bu idarəçiliyin zamanın müasir tələblərinə uyğun təşkil edilməsi, patent və əmtəə nişanlarına dair müraciət edən şəxslər üçün dürüstlüyün, açıqlığın və şəffaflığın təmin edilməsidir. Bununla yanaşı, müxtəlif obyektiv və subyektiv səbəblərə görə istifadəçilərini və nüfuzunu itirmiş Respublika Elmi-Texniki Kitabxanasının fəaliyyətinin müasir tələblərə uyğun yenidən qurulmasıdır, elektron, rəqəmli kitabxanaya çevrilməsidir.

Beləliklə, bilik sahəsini təmsil edən müəlliflik hüququnun, sənaye mülkiyyətinin və özündə patent və standartlar fondlarını cəmləşdirən elmi-texniki kitabxananın bir qurum səviyyəsində idarə edilməsi çox uğurlu institusional islahatdır.

Qarşımızdakı vəzifələrin yerinə yetirilməsində, əqli mülkiyyətin əhəmiyyətinin və faydasının artırılmasında əsas prinsip cənab Prezidentin iqtisadi islahatlarının uğurla həyata keçirilməsinə xidmət etməkdir. Bunları uğurla yerinə yetirmək üçün Agentlikdə isla-

hat səviyyəli çoxlu layihələr işlənilir və bir qismi artıq sona çatdırılıb. Mən onların üzərində dayanmayacağam. Lakin qeyd etməliyəm ki, üç gün öncə Moskva şəhərində fəxri qonaq və spiker qismində dəvət edildiyim çox mötəbər beynəlxalq konfransda dövlət başçısının təşəbbüsü ilə Azərbaycanda əqli mülkiyyət sahəsində həyata keçirilən islahatlar çox müsbət hallanmışdı, hətta Rusiyanın əqli mülkiyyət üzrə tanınmış rəhbərləri və alimləri bu təcrübəmizi öyrənmək üçün təkliflər irəli sürdülər.

Hörmətli dostlar!

Əqli mülkiyyəti idmanla bağlayan çoxsaylı tellər mövcuddur. Təsəvvür ediniz, siz stadiona və ya hansısa bir idman meydançasına daxil olmaq ərəfəsindəsiniz, yarış hələ başlanmayıb və siz hansı mənzərələrlə qarşılaşırsınız?

İlk gözümüzə toxunan – azarkeşlərin sevdiyi idman klubunun və ya idmançıların adları və ya şəkilləri olan köynəklər, maykalar, papaqlar və digər geyimlərdir. Bu isə o deməkdir ki, yarışdan öncə brendinq, brendlər – komandanın əmtəə reklamı artıq işdədir. Bu brendlərin çərçivəsində bir sıra ƏM obyektləri qorunur.

İdman meydançasına daxil olduqda görürük ki, meydança hər hansı bir komandanın, klubun adlarını

və loqotiplərini təmsil edir, yaxud tanınmış idmançının adını daşıyır, üstəlik, burada sponsorların da adlarını görmək olur. Bütün bunlar əmtəə nişanlarının nümayişidir.

Yarış başlanır, meydançadakı televiziya kameralarının işığı güclənir, kommentatorlar, yayım təşkilatları tamaşaçıları və dinləyicilər auditoriyasını salamlayır və rabitə texnologiyalarının yaratdığı yeni imkanlar hesabına milyardlarla insanları meydançadakı yarışa qovuşdurur. Bunun arxasında müəlliflik hüququ və əlaqəli hüquqlar durur.

Yarışların gedişində idmançılar müxtəlif idman növlərindən asılı olaraq, toplardan, beysbol alətlərindən, raketkalardan və s. ekipirovka adlanan vasitələrdən istifadə edirlər. Bunlar isə sənaye nümunələri, yəni dizaynın nümayişidir.

Fasilə zamanı, daha diqqətli olsaq, idmançını, məsələn futbolçunu müxtəlif rəngli butslarla da müşahidə etmək mümkündür. Bu idman çəkməsi bir sıra ƏM növlərini özündə nümayiş etdirir, o cümlədən texnologiyasını qoruyan patentləri, zahiri görünüşünü – əmtəə nişanını və onlara aid olan reklamı – müəlliflik hüququnu.

Beləliklə, idman milyardlarla dollarlıq qlobal sənayeyə çevrilmişdir və bu, obyektlərə (idmandan yayım

təşkilatlarına qədər) investisiyalar gətirir, dünyada milyonlarla insanı işlə təmin edir və çoxlarına sevinc bəxş edir.

Bu gün idman getdikcə daha çox idman-tamaşa tipli şou-biznes tədbirləri və müvafiq fəaliyyətlə önə çıxır, yəni idman yayımının həyata keçirilməsi, idman sponsorluğu, idman infrastrukturunun işləməsi, idman mallarının industriyası, idman təchizatı və ekipirovkası, idman lotereyaları və s. Bununla da əqli mülkiyyət nəticələrinin istifadəsi idman sahəsində idman fəaliyyətini, idman tədbirlərini ən qüdrətli maliyyə mənbəyinə çevirir.

Dünyada idman industriyasından əldə edilən ümumi gəlirlər, o cümlədən sponsorluq, keçirilən yarışlarda tamaşaçı ödənişləri və daxil olmaları, KİV-lərin hüquqları ilə bağlı və onların kommersiyalaşmasına aid rüsumlar və s. 150 mlrd. ABŞ dollarını ötüb. Digər tərəfdən geyim və ayaqqabılarla bağlı idman ləvazimatı, yəni idman mallarının qlobal dövriyyəsi 300 mlrd. ABŞ dollarını keçib. Avropa Komissiyasının araşdırmalarına əsasən, Avropada kütləvi idman növləri üzrə yalnız KİV-lərə hüquqların verilməsindən əldə olunan illik gəlir 500 mln. avrodan çoxdur.

İdmanın iqtisadi dəyəri əqli mülkiyyət hüquqlarına əsaslanan işgüzar əlaqələri gücləndirir. Bu isə öz növ-

bəsində, idman təşkilatlarının bizim həzz aldığımız tədbirləri maliyyələşdirməsi və idmanın təşviqini təmin etməsi ilə bu sahənin inkişafını stimullaşdırır. Avropa Komissiyasının məlumatına əsasən, dünya ÜDM-in 2%-i idman sektoru tərəfindən yaradılır. Son tədqiqatlar isə göstərir ki, dünya idman industriyasının 2023-cü ilə qədər inkişafı illik 7-11% artımla müşahidə olunacaq.

Beləliklə, idman sahəsində daha geniş şəkildə istifadə olunan əqli mülkiyyət formalarından biri universallığı və geniş tətbiqi baxımından fərqlənən əmtəə nişanıdır. Çünki istənilən ƏM obyekti, o cümlədən idman klublarının adları, açar ifadələr və digər adlar əmtəə nişanı formasında qeydiyyatdan keçirilə bilər.

İdman təşkilatlarının malik olduğu ən qiymətli aktivlərdən biri onların adları, loqotipləri, xarakteristikasını müəyyən edən digər vasitələrdir ki, ictimaiyyət tərəfindən nisbətən asanlıqla identifikasiya olunur və bunlarla həmin təşkilat ictimaiyyət arasında tanınır. Elə buna görə də göstərilən fərqlənmə nişanlarına olan hüquqlarını mühafizə etmək üçün idman yarışlarının təşkilatçıları və idman təşkilatları onları müvafiq qaydada daha çox əmtəə nişanı qismində qeydiyyatdan keçirirlər.

İdman sahəsində geniş yayılan əmtəə nişanları – loqotiplərdir. Üstəlik, loqotiplər müəlliflik hüququ ilə də qoruna bilər. İdmanda yazılmış vizual təsvirlərinə və ya idman yarışlarının reportajlarına, tədbirlərin, komanda və idmançıların şəkillərinə, idman sahəsində idarəetmənin həyata keçirilməsi üçün istifadə olunan qaydalar, hesabatlar və digər materialların toplusuna, həmçinin idmanın təbliği, kompüter proqramlarının qorunması və idman yarışlarının dərc olunmuş nəticələrinə münasibətdə müraciət edərək, görürük ki, bunlar müəllif-hüquq obyektləri qismində qorunurlar.

İdman industriyası üçün müasir müəlliflik hüququ konsepsiyasından irəli gələn və ən çox gəlir gətirən ƏM formalarından biri yayım hüququ, yəni əlaqəli hüquqlardır. Oyunların radio və televiziya ilə yayımlanması idman yarışlarının canlı auditoriyasını əhəmiyyətli dərəcədə genişləndirmişdir. Onun idman sahəsi üçün üstünlükləri təkcə idman azarkeşlərinə idman yarışlarının keçirildiyi yerlərdə şəxsi iştirakının alternativini təqdim etməklə məhdudlaşmır, eyni zamanda azarkeşlərin coğrafi yerindən asılı olmayaraq sayını artırır.

ƏM-in müxtəlif növlərindən biri olan patentlər də idman sahəsində hüquqların qorunması üçün istifadə olunur, lakin məhdud və müəyyən kontekstdə, məsə-

lən, müxtəlif idman ləvazimatı və avadanlıqlarına, idman ekipirovkalarına münasibətdə texnologiyaların qorunmasıdır.

Onu da qeyd edək ki, ƏMH-nın qorunması eyni dərəcədə həm individual, həm də komanda idman növlərində həyata keçirilir. Kommersiya hüquqlarının və kütləvi informasiya vasitələri ilə bağlı hüquqların verilməsi idman komandalarına və idman liqalarına, idmançılara imkan verir ki, müstəqil ticarətin faydalarını görsünlər və özlərini reklam etsinlər, həmçinin öz populyarlığını istifadə etsinlər.

Hörmətli dostlar!

İdmançılarımızın parlaq qələbələri ilə yanaşı, qürur hissi ilə qeyd etmək lazımdır ki, bu gün Azərbaycan dünya səviyyəli yarışları ən yüksək səviyyədə təşkil edən idman ölkəsi imicini qazanmışdır. Bütün dünyanın idman həvəskarlarının yüksək qiymətləndirdiyi Birinci Avropa oyunları, bütün İslam dünyasında böyük əks-səda doğurmuş "Bakı 2017 İslam Həmrəyliyi Oyunları", dördüncü ildir ki, ən yüksək səviyyədə ölkəmizin Milli Gimnastika Arenasında keçirilən İdman gimnastikası üzrə Dünya Kuboku yarışları, Bakıda uğurla keçirilmiş 17 yaşınadək qızlar arasında futbol üzrə dünya çempionatı, artıq bir neçə ildir ki, dalbadal

Bakıda çox uğurla təşkil edilən Formula 1 Azərbaycan Qran-Prisi yarışları və s.

Bununla yanaşı, qeyd etmək lazımdır ki, hazırda Bakı 2020-ci ildə futbol üzrə Avropa Çempionatının dörddə bir final oyunlarının və üç qrup qarşılaşmasının bir neçə oyununun təşkilinə, həmçinin bir çox digər dünya və Avropa səviyyəli idman yarışlarına ev sahibliyi etməyə hazırlaşır.

Çovqan kimi qədim oyunumuzun UNESCO tərəfindən qeyri-maddi irs incisi kimi qorunması da bizim qürurumuzdur.

Bu cür mötəbər idman yarışlarını sadalamaqda əsas məqsədim sadəcə onları xatırlatmaq deyildir. Qeyd etmək istəyirəm ki, bu yarışlar əqli mülkiyyətlə sıx bağlıdır. Biz təşkilatçıların rəsmi müraciətləri əsasında təşkilatçılar və yarışlar zamanı istifadə olunan əsərlərin və tərkibində əqli mülkiyyət olan məhsulların hüquq sahibləri arasında münasibətlərin tənzimlənməsində, bununla bağlı lisenziya sazişlərinin bağlanmasında ortaya çıxan məsələlərin həllində köməklik göstəririk. Bu heç də təsadüfi deyil, çünki Avropa İttifaqının Əqli Mülkiyyət İdarəsinin apardığı tədqiqatlar göstərir ki, saxtakarlıq və kontrafaksiya nəticəsində idman industriyası hər il satışların 6,5%-i miqdarın-

da itkilərə məruz qalır, bu isə 500 mln. avro və itirilən 5800 iş yerləri deməkdir.

ÜƏMT builki müraciətində hamını idmanın ruhlandırıcı və canlandırıcı imkanlarını birgə qeyd etməyə, yeni innovasiya fəaliyyətləri yaratmağa və insanları yeni yüksəkliklər əldə etmək üçün birləşməyə çağırır.

İdman kumirlərinizi və dünya idmanında bizi daha çox heyrətləndirən innovasiyalar haqqında danışmağa və idmanın gələcəyi ilə bağlı baxışlarımızı birgə bölüşməyə çağırır. Odur ki, hər birimiz bu tədbirlərin fəal iştirakçısına çevrilək, həm idman yarışlarında, həm də innovasiya və yaradıcılığın inkişafında fəal iştirak edərək, töhfələrimizi verək! Bu yolda hər birimizə uğurlar arzulayıram!

Təşəkkür edirəm.

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyində hazırlanmışdır.